**AZƏRBAYCAN RESPUBLİKASININ
AUDİTORLAR PALATASI ŞURASININ
QƏRARI**

Bakı şəhəri № 217/3 23 fevral 2011-ci il

Azərbaycan Respublikası Auditorlar Palatasının Metodik Komissiyasının Əsasnaməsinin təsdiqi və yeni tərkibi barədə

Audit və mühasibat uçotu sahəsində Beynəlxalq standartların və onlara edilən əlavə və dəyişikliklərin, Beynəlxalq peşəkar qurumların normativ sənədlərinin, qabaqcıl xarici audit təcrübəsinin öyrənilməsi, Azərbaycan Respublikası Auditorlar Palatasının üzvlərinə, əməkdaşlarına və bütün maraqlı tərəflərə çatdırılması, habelə onların Azərbaycan Respublikasında tətbiqi ilə əlaqədar tövsiyələrin hazırlanması məqsədilə yaradılmış Azərbaycan Respublikası Auditorlar Palatasının Metodik Komissiyasının Əsasnaməsinin təsdiqi və yeni tərkibi ilə əlaqədar sədrin elmi-metodik məsələlər üzrə sədrin muşaviri N.Talıbovun məlumatını nəzərə alaraq, Auditorlar Palatası Şurası

**QƏRARA ALIR:**

1. “Azərbaycan Respublikası Auditorlar Palatasının Metodik Komissiyasının Əsasnaməsi” təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikası Auditor Palatasının Metodik Komissiyasının yeni tərkibi müəyyən edilsin:

**Metodik Komissiyasının sədri:**

| | |
|---|---|
| Talıbov Nəcəf | Sədrin elmi-metodik məsələlər üzrə müşaviri |

**Metodik Komissiyasının üzvləri:**

| | |
|---|---|
| Vəliyev İlqar | “Ernst Yanq Holdinqs (SiAyEs) Bi.Vi.” şirkətinin idarəedici partnyoru, Palata Şurasının üzvü |
| Abbasquliyev Teymur | “Pricewaterhouse Coopers Eastern Europe B.V.” MMC-nin audit üzrə direktoru |
| Hüseynov Zamin | “MAK Azərbaycan LTD” MMC-nin direktoru |
| Qurbanlı Ziya | Sərbəst auditor |
| Qurbanov Elnur | “Deloitte &Touche» MMAC-nin partnyoru |
| Rəhimov Vəli | Maliyyə və informasiya təminatı idarəsinin rəisi |

3. Auditorlar Palatasının Metodik Komissiyasına tapşırılsın ki, Əsasnamədən irəli gələn vəzifələrin icrasını təmin etsinlər.

4. Bu qərarın icrasına nəzarəti özüimdə saxlayıram.

**ŞURANIN SƏDRİ V.NOVRUZOV**